DÖVLƏT VERGİ XİDMƏTİ

# Bir sıra aksizli malların aksiz dərəcələri dəyişdirilmişdir!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2026-cı il tarixindən etibarən** Respublikada istehsal olunan aşağıdakı aksizli mallar üzrə aksiz dərəcələri artırılmışdır:

**Alkoqollu məhsullar**

Respublikada istehsal olunan aşağıdakı məhsulların hər ltrinə tətbiq edilən aksiz dərəcəsi **4,8** manatdan **5,0** manata qaldırılmışdır:

- İçməli spirt (o cümlədən denaturlaşdırılmamış etil spirti);
- Araq (vodka), tündləşdirilmiş içki və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları;
- Konyak və konyak materialları.

**Tütün məhsulları**

Respublikada istehsal olunan aşağıdakı tütün məmulatlarının 1000 ədədinə tətbiq edilən aksizin dərəcəsi **45,5** manatdan **55**

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

manata qaldırılmışdır:

- Tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri;
- Siqarilla (nazik siqarlar).
- Aksizin tətbiq edildiyi aksizli malların siyahısında dəyişiklik edilmişdir. Belə ki,
  - qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri ayrıca kateqoriya kimi saxlanılmışdır –hər kiloqramına **22,0** manat (dəyişməz)
  - istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, “homogenləşdirilmiş” və ya “bərpa edilmiş” tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər üzrə hər kiloqramına tətbiq edilən aksiz dərəcəsi **162,0** manata qaldırılmışdır.
- Alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullarının 1000 ədədinə tətbiq edilən aksiz dərəcəsi 16 manatdan 25,5 manata qaldırılmışdır.
- Respublika daxilində istehsal olunan energetik içkilərin hər litrinə tətbiq edilən aksiz dərəcəsi 3,1 manatdan 3,3 manata qaldırılmışdır.
- tündləşdirilməmiş alkoqollu içkilər (tərkibində spirtin miqdarı 9 faizdən çox olmayan) üzrə hər litrə tətbiq edilən aksiz dərəcəsi 0,4 manatdan 0,5 manata qaldırılmışdır.

**BAKI — 2026**